Az1000 Bakı şəhəri, Hökumət evi,
Üzeyir Hacıbəyov küçəsi, 40.
Fax: 00 994 12 498 23 65

**Azərbaycan Respublikası Prezidenti**
Yanında Ambusdman ( insan hüquqlarının
Müdafiəsi üzrə müvəkkil)
**Elmira xanım Süleymanovaya,**

Azərbaycan Respublikası Göyçay şəhəri
Nizami küçəsi 69 saylı ünvanın sakini
İsmayıl Zenfirə tərəfindən

05.02.2010-cu il tarixli

# ƏRİZƏ

AFR məhkəməsinin 15.12.2009 oğlum Rüstəmə "psixi paranoid xəstə" diaqnozlu qərarına qarşı qəti etirazımı bildirirəm. Və sizdən xahiş edirəm ki, təcili **www.rustemazeri.com** saytını açıb oradakı materiyalları yoxlayasınız.

Məlumatınıza onu çatdırmaq istəyirəm ki, oğlum Rüstəm AFR - da yaşadığı 1998-ci ildən etibarən dövlət hakim, məmur və polislər tərəfindən ağır psixiterrorlara məruz qalmışdır. Belə ki, 1998-ci ildə oğlumu qanunsuz olaraq türməyə salmışlar və ağır sətəlcəm olduğu üçün, gis aylarında küçəyə atılmışlar. Möhkəm sətəlcəm xəstəsi olan oğlum dövlət dairələrinə rəsmi baş vurmasına baxmayaraq, ona AFR - qanunlarında nəzərdə tutulan yardımlar edilməmiş və müalicəsinə əngəllər çıxardaraq cinayətlər törədilmişdir.

1999-cu ildə bir daha eyni iddiya ilə oğlumu türməyə atıblar. Bir il əvvəl sətəlcəm xəstəsi olan Rüstəmin artıq vərəmdən sol ciyərinin çürüdüyünü və sətəlcəmdən irəli gələn, beyninə təsir edən epilepsiya vəziyyətini görən dövlət cinayətləri ört-basdır etmək məqsədi ilə tədbirlər almağa başlamış, hətda qanunsuz saldıqları türmədə belə 02.11.1999-cu ildə epilepsiya keçirdiyi halda ona yardım edilməmiş, əksinə polislər tərəfindən oğlumun toxunulmaz qürur və şərəfinə toxunaraq zorla çılpaq soyundurulub vəhşicəsinə döyülmüşdür. Həmən tarixdə yəni 1999-cu ildə oğlumun bu cinayət barədə şikayət etməsindən narahat olan dövlət adamları, oğluma qarşı 2000-ci ildə qanunsuz məhkəmə qərarı çıxarıblar. ( Nr: 528 Qs 49 / 03 (251 b / 251 a Ds) 52 Js 7/00 ( 349 / 00 ))

Həmən bu qərara dayanaraq almanyada yaşamaq statusu, sosial yardımı və iş icazəsi oğluma məhkəmələr tərəfindən qadağan oldu. Bundan başqa sətəlcəm, epilepsiya və vərəm xəstəliklərinin ortaya çıxmaması üçün, məhkəmə ( Nr: VG 32 A 594 00 ) AFR-qanununda olmayan doktora getməsi və müalicə olunmağı qadağan edən qərar verib. Həmçinin 23.10.2000 bu məhkəmə qərarında insan hüquqlarına zidd sözlərdən istifadə edərək oğlumun rəsmən öldürülməsini göstərib. Müalicəsinə qadağan qoyulan həmən qərarının son cümləsi bu sözlərlə tamamlanır ( hətda bu adam özü könüllü öz ölkəsinə getməyə razılıq versə belə, və bizim dövlət həkimləri tərəfindən göstərilsə ki, bu insan artıq ağır xəstə olduğu üçün ölkəsinə gedə biləcək vəziyyətdə deyil və az da olsa müalicə olmalıdır ( yəni ölməməsi üçün ) hətta bucür vəziyyətdə belə, bu məhkəmə qərarı quvvədə qalır. Yəni dövlət həkimləri öldüyünü göstərsə belə sağalmağa imkan verilməsin və son nəfəsinə qədər öldürülsün. Bu gün AFR dövləti göstərir ki, guya oğluma humanitar yaşamaq hüququ verilmişdir. Burada hansı demokratiyadan, humanitarlıqdan və ya insan hüququndan söz etmək olar?

Oğlum 2001 - ci ildə həkim diaqnozlarına dayanaraq, vərəmdən müalicə olunması üçün məhkəmədən icazə istəyib. Lakin məhkəmə ( Nr: VG 32 A 487 / 01) ona 04.09.2001 də

yazdığı məktubunda göstərib ki, ona vərəm xəstəliyindən müalicə edilməsinə icazə verilməsi üçün, gərək psixiyator həkimdən psixi xəstə olduğunu və öz ölkəsində bunun müalicəsi olmadığını göstərən araiş gətirsin. Ancaq bu araiş olduqdan sonra oğluma vərəm xəstəliyinin müalicəsinə icazə veriləcək. İstədiyi psixiyatri araişi alan məhkəmə, oğlum Rüstəmə yenədə sətəlcəm və vərəm xəstəliklərindən müalicə edilməsinə icazə verməmiş. Sual, əgər Rüstəmə sətəlcəm və vərəm xəstəliklərindən müalicəsinə icazə verilməyəcəkdirsə, nə üçün psixi xəstə kimi intihar edə biləcək diagnoz istənmişdir? Birdə ki, psixiator həkim qanunlara görə xəstə ilə ən azı 3 ay görüşüb kontrol etdikdən sonra ilk psixi diyaqnozunu qoya biləcəyini bilən məhkəmə, nə üçün ancaq bir görüş ilə belə bir spravkanı aldırdı?

Hakim qərarları ilə işləməyə, yardim almağa qadağan qoyulan demokratik hüquq sayılan almanyada, 5 il oğlum evsiz - eşiksiz küçələrdə qürur və mənliyi sınaraq yaşatdırılır. Bütün bu qanun pozuntuları oğlumda 16 çarəsi olmayan xəstəliklərə yol açdı, 2003 cü ildə infakt keçirib,2004 cü ildə Avropa İnsan Hakları məhkəməsinə şikayət etməyi ilə bərabər AFR parlamentinin qarşısında intihara qalxıb. Bu hadisədən sonra yenədə dövlət təşkilatları tərəfindən törədilən cinayətlər AFR - in 80 məhkəməsində ört basdır edilmişdir. Onuda nəzərinizə çatdırmalıyam ki, 2004-cü ildən Avropa İnsan Hakları Məhkəməsində **(Nr.746 / 04)** - **(Nr. 6859 / 08)** - **(Nr. 2968 / 09)** davalar açılmağına baxmayaraq, bu günə qədərdə davanın baxılması uzadılır.

Oğlumdakı depresiya və psixi xəstəliklərinin səbəbi ni məhz ona qarşı qanun pozulmalarından, böhtan və iftiradan irəli gəldiyini bilən Charite psixiatri xəstəxanası, bu psixoterorlara göz yumub və krizlərə kənardan baxıb. Artıq təkcə məmur, polis və ya Məhkəmə deyil həm də həkimlərdə cinayətin açılmamasında maraqlı olublar. Məhz bu səbəbdən də dil bilməyən, qanun bilməyən, kimsəsiz bir insana, bir çox təşkilatlar tərəfindən gecə - gündüz hücumlar olub. Belə bir halda insanın ya intihar edəcəyi, ya da dəli olacağı dəqiq düşünülüb. Hər iki vəziyyət oğlum üçün bir sui-qəsd, AFR dövlətindəki cinayət qurupu üçünsə bir qurtuluş yolu götürülüb. Unutmayın ki, 2003 - cü ildən 2006 - cı ilə qədər Charite xəstəxanasında ayda 2 dəfə guya ki, müalicə edilib. Məhz bu 3 il ərzində oğlum psixi terrorlara məruz qalıb, evsiz-eşiksiz vəziyyətdə yaşayıb, 16 çarəsiz xəstəlik tapıb, infakt keçirib, intihara qalxıb və s. Psixoterrordan ibarət olan belə bir vəziyyətdə, cinayət ört-basdır etməkdən başqa, hansı müalicə edilib ki ?

Oğlumun teziyi ile 2005-cı ildə məhkəmə, 2000-cı ilde verdiyi ( Nr: 528 Qs 49 / 03 ( 251 b / 251 a Ds ) 52 Js 7 / 00 ( 349 / 00 ) qərarının, səhf qərar olduğunu qəbul etmişdir. Lakin 5-ilik sehvlərini qəbul etdikdən sonrada, Hakim, Vəkil ve Məmurlar öz cinayətlərinin üstünün açılmaması məqsədi ilə, 2007-ci ilə qədərdə qanunları pozmağa davam ediblər. Beləki oglum məhkəməni udduğundan sonra, oturum statusunun deyşdirilməsi gərəkdiyi halda, əksinə status üçün olan şikayəti, alman advokatı Lilga 2006-cı ildə geri cəkmişdir. Eyni zamanda bu advokat bir neçə sosialməhkəmələrindəki cinayətləridə ört-basdır etmiş və bunun garşılığında özünə məhkəmədə vəzifə əldə etmişdir. Oğlum Rüstəmə garşı, bucür ganun pozuntularını yuzlernən göstərmək münkündür.

Bugadər ədalətsizliyə garşı dayanan və hak ədalət axtaran oğlum, bir çox hakim və məmurların günahkar olduxlarını, faktlarla onların ozlərinə gəbul etdirməyi bacarmışdır. Həmçinin Rüstəm bu cinayətlə bağlı bu il Avropa İnsan Hakları Məhkəməsindədə ( Nr. 2968 / 09 ) baxılmasına nail ola bilmişdir. Lakin Avropa İnsan Hakları Məhkəməsindədə davanın birdaha açılmasından narahat olan günahkar Doktor, Məmur və Hakim dəstəsi, öz cinayətlərinin üstü açılmaması üçün, ən son cinayetlerinə əl atmışlar. Bu cinayətdən ən böyügü odur ki, oğlum 09.12.2009 tarixdən 15.12.2010 gədər azərbaycanda olduğu vaxt ərzində, AFR məhkəməsi ( Nr: 50 XVII 7034 / 09 ) 15.12.2009 tarixində, heç bir həkim rəyi olmadan, geyri ganuni yollar ila, oğlumun psixi Paranoid xəstə olduğunu göstərmiş və heç bir məhkəmədə, uzəliklə Avropa İnsan Hakları Məhkəməsindədə nə iştirak edə biləcəyini, nə

şikayət edə biləcəyini, həmçinin maddi finansınında özü kontrol və istifadə edə bilməyəcəyini göstərmişdir. Onu bilməniz çox vacibdir ki, oğlum psixoterorlara məruz galdığı vaxtlarda ona heç bir yardım göstərilməmiş və problemlərlə baş-başa buraxılmışdır. Lakin zor bəla ilə özündə bir az güc toplayarag problemləri aşan və cinayətlərin üstünü açan Rüstəmi, nədənsə indi güya kömək məgsədi iylə məhkəmələrdən uzaglaşdırırlar.

Oğluma qarşı verilən bu ədalətsiz qərarın qeyri-qanuni olması, aşağıda göstərilən faktlarla sübut olunur.

1. Oğlum müəyyən səbəblər uzundən 2006-cı ildən etibarən heç bir psixiator həkimi ilə görüşmür. Bu səbəblər ondan ibarət idi ki, qanunsuz pasport statusunda, yəni - § 25 Abzas 5 statusunda tutmaqla, dövlət oğlumu 2006-cı ilədək psixiator həkimlərdən asılı vəziyyətdə saxlayıb. Belə ki, § 25 Abzas 5 statusuna görə psixiator həkim guya müalicə etdiyi vaxta qədər Almanya ölkəsində qala bilər. Ancaq oğlum 2005-ci ildə məhkəmədə udduğu ( Nr: 528 Qs 49 / 03 (251 b / 251 a Ds ) 52 Js 7 / 00 (349/00)) qərara görədə o status dəyişməli idi. Qovulma statusunda AFR dövləti oğlumu qorxudub, ağzını bağlayıb, danışma hüququnu həkimlərə vermişdir. 2006-cı ildə AİDS xəstəliyini oğlum zorla öyrənə bildikdən sonra, bu qanunsuz salındığı psixiator həkim təsirindən imtina edib qurtula bilmişdir. Çünki, AİDS xəstəsində ( yəni-spid xəstəliyində ) qovulma statusu verilə bilməz.

2. Məhkəmə tərəfindən oğlumun evinə 20.08.2009 yollanan dövlətin psixiator eksperti tərəfindən, qanunsuz olaraq qoyulmuş olduğu Paranoid diaqnozuna qarşı, oğlum 12.11.2009-cu il tarixdə etirazını bildirmişdir. Məhz bu səbəbdəndə 27.11.2009-cu ildə məhkəmə salonuna ekspert dəvət edilib. Həmin gün Advokat Tomasın və tərcüməçi Dr.Ələkbərovun şahidlik etdiyi prosesdə, Ekspert öz qoyduğu psixi paranoid diaqnozun doğru olmadığını etiraf edib. Bu etiraf 27.11.2009 tarixli məhkəmə protokolundada yazılıb. Belə bir vəziyətdə məhkəmə hansı hekim rəyinə dayanaraq 15.12.2009-cı ildə paranoid psixi xəstə diaqnozunu qoyub ?

3. Oğlumun məhkəmələrdə fikrini deyə bilməyəcəyinə və özünü idarə edə bilməyəcəyinə elə ağır psixi xəstə olması gərəkir ki, onun yerinə başqası qərar versin. Ancaq mənim oğluma bu qərar verilərkən mənim oğlum özü yol xərcini çəkərək, Berlindən somalyot ilə İstanbula, oradan da avtabus ilə Azərbaycana gəlmişdir. Həmən yollarlada öz finansını idarə edərək geri qayıtmışdır.

4. Məhkəmə tərəfindən 05.05.2009-cu ildən qanunsuz verilən 2 alman xəstə baxıcılarına oğlum dərhal öz etirazını bildirməyinə baxmayaraq, hakim bu xəstə baxıcılarını ancaq 16.10.2009 - cu il tarixində, yəni 5 aydan sonra ləğv etmişdir. Xəstə baxıcısının 16.10.2009-cu il tarixli hesabatı, oğluma ancaq 03.12.2009-cu il tarixində verilmişdir. Bu hesabatda məlum olmuşdur ki, 5 ay içində böyük sensasiya olan, 1999-cu il polis döymə davasını, BGH ( Nr: 2 Ars 346 / 09 ) məhkəməsinin tələbi ilə, xəstə baxıcıları davanı geri çəkiblər. Oğlum 07.12.2009-cu ildə buna qəti etirazını bildirsə də məhkəmə buna məhəl qoymamışdır. Beləliklə, 02.11.1999-cu il tarixdə epilepsiya keçirən oğluma yardım edilməməsi və polislər tərəfindən Rüstəmin toxunulmaz qürur və şərəfinə zidd hərəkətlə onu zorla çılpaq soyunduruldüğu və vəhşicəsinə döyüldüyü cinayəti, 1999-cu ildən yazılan şikayətinə gərəksiz bəhanələr göstərərək 10 ildə açılmamasının, 2009-cu ildə qanunsuz verilən alman baxıcılarının əli ilə geri çəkdirmişlər. Və 15.12.2009 - ( Nr 50 XVII 7034 / 09 ) qanunsuz qərara əsasən, oğluma hətda bu barədə nə, soruşmağa nə də ki şikayət etməyə icazə verilmir.

Əlbətdəki mənim oğluma olunan 11 illik psixoloji terror nəticəsində oğlumun psixi sağlam qalması, depresyaların olmaması mümkün deyil. Ancaq oğlum o dərəcədə dəli deyil ki, onun yerinə hüquqi kimsə qərar versin. Dəli bir insan bu qədər cinayətlərin üstünü aça bilməzdir. Məhkəmənin 15.12.2009-cu il tarixli həkim rəyi olmadan verdiyi qanunsuz ( Nr 50 XVII 7034 / 09 ) bu qərarı, sadəcə oğlumun ağzını yenidən bağlayıb. Beləliklə Avropa İnsan Haqları Məhkəməsində, həmçinin başqa sözü keçən təşkilatlarda, onun yerinə başqalarının danışmasını bir daha təşkil edib. Oğlumun alman dilini qrammatik cəhətdən bilmədiyindən və ona qarşı pozulan qanunların bərpasında, hüquqi advokatların qanuni yollarla tapılmasında, məktubları oxuyub başa düşməsində və cavab yazılmasında oğlumun xəstə baxıcılarının köməyinə ehtiyac var. Ona kömək etmək və ya onun yerinə qərar vermək iki ayrı-ayrı işdir. Birdə ki, bütün sayılan problemləri oğlum tək başına həll etmiş, indi isə qanunları pozan cinayətkarların cəzalanmasını tələb edilməsi gərəkdiyində, onun hüquqları məhkəmə tərəfindən əlindən alınır. Bu oğluma kömək deyil, qanun pozanların cinayətinin üstünün açılmamasına əngəl çıxartmaqdır. Nəzərinizə çatdırmaq istəyirəm ki, son 1 ildə oğlumu, AFR polis əməkdaşları bir neçə dəfədə dəlixanaya salıblar. Bütün bu hadisələrdə Rüstəm etiraz edərək aclıq aksiyalarına başlayıb, ekspert tələb edib. Oğlumun neytral ölkələrdən ekspert gətirilmə tələbi, həkimləri oğlumu yoxlayıb onun dəli olmadığını təsdiq etməsinə məcbur edib. Bundan sonra oğlumu dəlixanadan çıxardıblar.

Sizdən çox xahiş edirəm ki, oğlumu dəli etmədən bu cinayətə son qoyulmasını təmin edəsiniz və bu məsələ ilə bağlı təcili öz ekspertlərinizi təyin edib, oğlumla görüşdürəsiniz.

Hörmətlə:

İmza:________ İsmayıl Zenfirə

# Sexsen Elmira xanim Suleymanovaya

Von: **Rustem azeri** (nes.ben@hotmail.de)
Gesendet: Freitag, 5. Februar 2010 13:02:40
An: Insan hakgi az (ombudsman@ombudsman.gov.az)
Anlagen:
Ombudsman.doc (64,0 KB)

Azerbaycan Respublikasi Goycay seheri, Nizami kucesi 69 sayli unvanin sakini Ismayıl Zenfira tarafindan yazilan Ariza-ni, Azerbaycan Respublikasi Prezidenti Yaninda Ambusdman ( insan huquqlarinin Mudafiesi uzre muvekkil ) Elmira xanim Suleymanovaya e-mail-da sancaga takib yoluyarag tegdim edirem.

Was machst Du grad bei Facebook?